**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRLİYİ**

AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, M.Mirqasımov küç.,1A | www.health.gov.az
Tel.: (+994 12) 565 32 03 Faks: (+994 12) 493 06 95 | e-poçt: office@health.gov.az

«19» yanvar 2017 il №5

# ƏMR

**Korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi barədə**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının 05.01.2017-ci il tarixli 2/11 nömrəli tapşırığına əsasən Korrupsiyaya qarşı mübarizə Komissiyasının 26 dekabr 2016-cı il tarixdə keçirilmiş müşavirəsində səsləndirilmiş irad və qeydlərin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 25.05.2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin bütün idarə və müəssisə rəhbərlərinə tapşırılsın:

1.1. korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi istiqamətində əməli tədbirlər görülsün;

1.2. imtiyazlı əhali qruplarına və dövlət (tədbirlər) proqramları çərçivəsində verilməsi nəzərdə tutulan dərmanların buraxılması üzərində ciddi nəzarət təmin edilsin;

1.3. tibbi fəaliyyətin bütün sahələrində şəffaflığın artırılması təmin edilsin;

1.4. səhiyyə müəssisələrinə ayrılmış büdcə vəsaitinin təyinatı üzrə xərclənməsi təmin edilsin;

1.5. görülmüş işlər barədə bir ay müddətində Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.

2. Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin direktoru M.Süleymanova tapşırılsın ki, qanunvericiliyə uyğun olaraq dərman preparatlarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət gücləndirilsin.

3. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, tibbi kadrların işə qəbulu və diplomdan sonrakı hazırlığı məsələlərin həyata keçirilməsində şəffaflığın daha da artırılması üçün tədbirlər görülsün.

4. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və Hüquq və daxili nəzarət sektorunun müdiri vəzifəsini icra edən E.Əzizova tapşırılsın ki, tibbi xidmətin göstərilməsi ilə əlaqədar əhalidən neqativ hallar barədə daxil olan şikayətlərin ciddi araşdırılması təmin edilsin.

5. Maliyyə iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, səhiyyə müəssisələri tərəfindən ayrılmış büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməsinə nəzarət gücləndirilsin.

6. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**